# YAP Xətai rayon təşkilatının ahıllara bayram hədiyyəsi









Hər il oktyabrın 1-i dünyada, o cümlədən ölkəmizdə Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu tarixdə respublikanın şəhər və rayonlarında yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edilir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirilir. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, biri-birindən əhəmiyyətli sosial layihələri ilə diqqət çəkən Yeni Azərbaycan Partiyasının (YAP) şəhər və rayon təşkilatları da bu mühüm tədbirlərdə xüsusi fəallıq nümayiş etdirirlər.

YAP Xətai rayon təşkilatının fəal gənclərinin ərzaq bağlamaları ilə 10 ahıl vətəndaşın görüşünə getməsi də bu qəbildəndir. Hər bir ahılla keçirilən görüşdə bu mühüm məqam xüsusi diqqətə çatdırıldı ki, hansı yaşda olmasından asılı olmayaraq hər bir vətəndaş cəmiyyətdə gedən proseslərin fəal iştirakçısıdır. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, əlaqələri möhkəmləndirmək baxımından çox əhəmiyyətlidir. Ahılların sərvəti onların həyat təcrübəsidir. Ahılların məşğulluğu, onların inkişaf proseslərinə cəlb edilməsi həm də sosial-iqtisadi durumun yaxışlaşması deməkdir.

Qeyd edək ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən, daha dəqiq desək, 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu kateqoriyadan olan vətəndaşlara diqqət və qayğı dövlətin həyata keçirdiyi sosial siyasətin əsas tərkib hissələrindən birinə çevrildi. Həmin vaxtdan ölkəmizdə 1 oktyabr - Beynəlxalq Ahıllar Günü qeyd olundu. Son 15 ildən artıq dövr ərzində bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi imzalanan Fərman və sərəncamlardan, Dövlət proqramlarından da aydın görünür. "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın qəbulu və uğurlu icrası da deyilənlərin təsdiqidir. Ölkə Prezidenti İlham Əliyev bu kimi addımları ilə hər kəsin Prezidenti olduğunu, eyni zamanda, əhalinin sosial müdafiəsinin prioritetliyini təsdiqləyir.

Ahıllardan Nənəş Babaşova, Nazilə İsmayılova, Fatma Vəliyeva, Zəhra Məmmədova, Rəfiqə Ağayeva, Elmira Seyidova və başqaları onlara göstərilən bu diqqət və qayğıdan məmnunluqlarını ifadə edərək, günbəgün güclənən, qüdrətlənən, dünya birliyində layiqli yer tutan Azərbaycanımızla qürur duyduqlarını bildirdilər. Qeyd etdilər ki, bu gün paytaxtımız, bölgələrimiz, kənd və qəsəbələrimiz sürətli inkişaf dövrünü yaşayırlar. Hara baxsaq böyük inkişafın, tərəqqinin şahidi oluruq. Dövlətimizin başçısı İlham Əliyevin mütəmadi olaraq ictimaiyyət nümayəndələri ilə görüşləri, onların qayğıları ilə yaxından maraqlanması, hər zaman "həyata keçirilən siyasətin təməlində vətəndaş amili dayanır" söyləyərək xalqına arxalandığını bildirməsi hər birimizi daha da ruhlandırır, qarşıdakı illərdə ölkəmizin daha böyük uğurlara imza atacağına əminliyi artırır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# YAP Səbail rayon təşkilatı humanitar aksiya keçirib







Sentyabrın 30-da Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı Gənclər Birliyinin üzvləri 1 oktyabr - Beynəlxalq Ahıllar Günü münasibətilə rayon ərazisində yaşayan ahıl və tənhalara sovqat paylayıblar.

Xeyriyyə aksiyası çərçivəsində gənclər və partiya fəalları müvafiq kateqoriyadan olan insanlarla görüşüb, onların vəziyyəti ilə maraqlanıblar. Gənclər, eyni zamanda, ahıl və tənhalara ev işlərində köməklik ediblər, təmizlik işləri görüblər.

Bildirilib ki, yaşlı nəslə, xüsusən də ahıllara dayaq durmaq, onlara köməklik göstərmək hər birimizin mənəvi borcumuzdur. Çünki yetişməkdə olan gənc nəslin bu ruhda tərbiyə olunması üçün bunlar vacib şərtlərdən biridir. Həmçinin qeyd edilib ki, Səbail rayonu ərazisində yaşayan ahıllar, ağsaqqallar rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu gün onlar gənc nəslin tərbiyəsində, hərbi-vətənpərvərlik ruhunda yetişməsində böyük rol oynayırlar.

Eyni zamanda, vurğulanıb ki, öz fəaliyyətində daim sosial istiqamətləri prioritet elan edən YAP sosial-iqtisadi inkişafla bağlı davamlı olaraq müxtəlif layihələr həyata keçirir. Belə fəaliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların və tənhaların daim diqqətdə saxlanılması, onların qarşılaşdıqları problemlərin həllidir. Prezident İlham Əliyev tərəfindən ahıllara diqqət, qayğı və sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə çoxlu sayda sərəncamlar imzalanıb. Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da ahılların ən böyük qayğıkeşidir. Onun təşəbbüsü ilə ahıllar, müharibə veteranları ilə görüşlər keçirilir, onların sağlamlığı diqqətdə saxlanılır.

Ziyarət olunan şəxslər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Onlar qeyd ediblər ki, həyata keçirilən bu cür aksiyalar onların maddi rifah halının yüksəldilməsinə töhfə verməklə yanaşı, xoş əhval-ruhiyyə yaradır.

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Xəzər rayonunda Beynəlxalq Ahıllar Günü qeyd edildi







BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi "Ahılların müdafiəsi ilə bağlı Qətnamə"yə əsasən, 1 oktyabr - Beynəlxalq Ahıllar Günü kimi təsis edilmişdir. Beynəlxalq Ahıllar Günü 1993-cü ildən başlayaraq Azərbaycanda da hər il yüksək səviyyədə qeyd edilir.

YAP Xəzər rayon təşkilatının Gənclər Birliyinin fəalları Beynəlxalq Ahıllar Günü münasibətilə rayon ərazisində yaşayan ahıllarla görüş keçiriblər.

Görüşdə YAP Xəzər rayon təşkilatının Gənclər Birliyinin sədri Sadiq Əliyev bildirib ki, böyüklərə hörmət və qayğı hər bir insanın mənəvi borcudur. Cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində məhz böyüklərə hörmət və qayğı hissinin formalaşdırılması vacib məsələlərdəndir. Bu, cəmiyyəti yaşadan ən əsas prinsiplərdən biridir.

Sadiq Əliyev vurğulayıb ki, ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması, hüquqlarının təmin edilməsi istiqamətində ölkə rəhbərliyi tərəfindən davamlı tədbirlər həyata keçirilir.

Ahılların hərtərəfli dövlət qayğısı ilə təmin olunması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi ümummilli lider Heydər Əliyevin sosial siyasət kursunun mühüm tərkib hissəsi olmuş, milli və bəşəri dəyərlərə söykənən bu siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən layiqli səviyyədə davam və inkişaf etdirilməkdədir.

Gənclər Birliyinin sədri diqqətə çatdırıb ki, dövlət tərəfindən sosial təminat sahəsinə aid qanunların, fərman və sərəncamların qəbulu zamanı ahılların maraqları, sosial statusu nəzərə alınıb. Belə ki, "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilib. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verib.

Digər çıxış edən fəallar rayonda ahıl və veteranlarla bağlı görülən işlərdən, onlara göstərilən diqqət və qayğıdan danışıblar.

Çıxış edən ahıllar Azərbaycanda ahıl insanlara dövlət qayğısının ildən-ilə artdığını bildirib, göstərilən diqqətə görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə iştirak edən ahıllara ərzaq bağlamaları təqdim olunub.

Sonda ahıllarla birgə xatirə fotosu çəkdirilib.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***